Mir Rəhim Vilai

# MİLLİ HÖKUMƏTİN SİYASİ, İQTİSADİ VƏ MƏDƏNİ REFORMALARININ YERİNƏ YETİRİLMƏSİNDƏ DEMOKRATİK MƏTBUATIN MÜBARİZƏSİ

Azərbaycan Demokrat Firqəsi hakim partiya olduğu birinci gündən etibarən doğma Azərbaycan dilində mətbuatın çıxmasına artıq dərəcədə fikir vermiş və milli hökumətin bütün siyasi və iqtisadi tədbirlərinin kütlələr üçün işıqlandırılmasında həmin mətbuat qarşısında təxirəsalınmaz mühüm vəzifələr qoymuşdur.

Azərbaycanda milli hökumətin qurulması ilə Azərbaycan milli mətbuatının tərəqqi və inkişafı üçün də yeni bir dövr açıldı.

Az bir zamanda Təbriz və Azərbaycanın vilayət mərkəzlərində ana dilində yeni qəzet və məcmuələr nəşr olunmağa başladı.

Təbriz şəhərində Azərbaycan Milli Məclisinin orqanı «Azad millət», Azərbaycan həmkarlar İttifaqının orqanı «Qələbə», Azərbaycan. Demokrat Cavanlar Təşkilatının orqanı «Cavanlar», «Yeni şərq», «Fəryad», erməni dilində «Haqa faşist» (antifaşist), Ərdəbil şəhərində «Cövdət», Urmiyə şəhərində «Urmiyə», Zəncan şəhərində «Azər» qəzetləri, Təbrizdə «Şəfəq», «Demokrat», Azərbaycan şairlər cəmiyyətinin orqanı «Günəş», «Azərbaycan», «Mədəniyyət», Miyanada «Vətən» və s. məcmuələri göstərmək olar.

Bu dövrdə doğma ana dilində nəşr edilmiş mətbuatımıza Azərbaycan Demokrat Firqəsinin orqanı olan «Azərbaycan» qəzeti istiqamət verir və onların mübarizə yollarını işıqlandırırdı. Bu haqda deyilir: «Azərbaycan» qəzeti artıq öz müqəddəratına yiyələnmiş qəhrəman bir xalqın mübariz orqanı olmuşdur. Burada iştirak edən istedadlı mühərrirlər mürtəcelərin hər növ fitnəkarlıqlarını vaxtlı vaxtında ifşa edirlər. Qəzet İran Azərbaycanında hər gün böyük ictimai tədbirlər görən milli hökumətin hər addımını xalqa izah edir, xalqın cuşə gəlmiş kin və qəzəbini daha da alovlandırır, onun milli şüur və iradəsini doğru bir istiqamətə yönəldərək hər an sərvaxt və ayıq olmağa çağırır[1].

Azərbaycan milli hökumətinin demokratik əsaslar üzərində hazırlanmış 20 maddədən ibarət yeni proqramı Azərbaycanın geniş xalq kütləri tərəfindən böyük sevinc və rəğbətlə qarşılandı, çünki bunlar Azərbaycan xalqının siyasi, iqtisadi, mədəni maarif sahələrində həyata keçiriləcək əsas məsələlər idi.

Milli hökumətin proqramında göstərilən maddələr istər milli hökumət tərəfindən və istərsə də Azərbaycan milli məclisi tərəfindən qanunvericilik yolu ilə həyata keçirildikcə, bütün demokratik reformalar öz əksini Azərbaycanda nəşr edilən demokratik mətbuatın səhifələrində tapır və xalqa aydın surətdə izah olunurdu. Milli hökumətin yeni proqramının demokratik bir proqram olması haqqında deyilir: «İran Azərbaycanında xalqın özündən nəşət edərək əmələ gəlmiş və xalq kütlələrinin əsrlərdən bəri etdikləri arzuları yerinə yetirən demokratik islahat bütün dünyada demokratiyanın sadiq dostları tərəfindən məmnuniyyətlə qarşılanmışdır.

İran Azərbaycanının muxtar hökuməti tərəfindən nəşr olunmuş proqram nəzərdiqqəti özünə

xüsusilə cəlb etmişdir. Bu proqramda nəzərdə tutulmuş tədbirlər milli həyatın bütün sahələrini sağlamlaşdırmağa doğru yönəldilmişdir»2.

Azərbaycan milli hökumətinin tədbirlərindən və qərarlarından biri Azərbaycan dili haqqında və Təbriz şəhərində darülfünunun açılması haqqında çıxardığı qərardır. Azərbaycan milli hökuməti Azərbaycan dilini rəsmi dövlət dili elan etdi. Qərarda deyilir: «Bu gündən etibarən Azərbaycanda Azərbaycan dili rəsmi dövlət dili hesab olunur. Dövlətin qərarları və rəsmi elanlar, həmçinin xalq qoşunları hissələrinə verilən fərmanlar və qanun layihələri mütləq Azərbaycan dilində yazılmalıdır»3.

Bununla yanaşı olaraq, milli hökumət Azərbaycanda yaşayan millətlərə öz işlərini öz ana dillərində aparmağa ixtiyarat verdi. Bundan başqa, milli hökumətin qərarı ilə Azərbaycanda yaşayan xırda millətlərin xüsusi milli məktəblərində təlimin öz ana dillərində aparılmasına da icazə verildi.

Milli hökumətin milli universiteti və dil haqqındakı bu iki qərarı Azərbaycanın demokratik mətbuatında geniş surətdə işıqlandırılıb xalq kütlələrinə çatdırıldı.

«Azərbaycan» qəzeti bu iki qərarı qiymətləndirərək «Milli dil — milli darülfünun» adlı məqalədə belə yazmışdır:

«Bu qərar müasir dünyanın demokratik ölkələrinin qanunauyğun və əsri ehtiyaclara münasib bir qərarıdır. Bu qərar ana dilində oxuyub yazmağı rəsmi hala gətirmək surəti ilə, Azərbaycanda yaşayan bütün xalqlar üçün ümumi təhsilin yolunu açmışdır»4.

Doğrudan da milli hökumətin belə bir tədbiri Azərbaycan xalqının milli mədəniyyətinin inkişafında böyük rol oynadı. Doğma ana dilində məktəblər açılması, ibtidai və orta məktəblər üçün Azərbaycan dilində dərs kitablarının çap edilməsi dediklərimizə parlaq sübutdur.

Azərbaycan milli hökumətinin maarif sahəsindəki bu ilk qədəmləri Azərbaycan xalqının milli şüur və düşüncəsinin məhsuludur.

Azərbaycan xalqının milli azadlıq hərəkatı xalqı öz ölkəsinin, öz müqəddəratının həqiqi sahibi etdiyi kimi, onun doğma dilini və milli mədəniyyətini də özünə qaytardı. O, beləliklə də xalqın irəliyə doğru inkişaf və tərəqqi etməsinə geniş yol açdı.

Azərbaycanda universitetin təşkili də Azərbaycan xalqının mədəniyyət tarixi üçün böyük hədiyyə oldu.

Seyid Cəfər Pişəvəri 1946 cı ilin iyun ayının 12 də Təbrizdə Azərbaycan universitetinin açılışı münasibəti ilə söylədiyi nitqində demişdir: «Bizim bu darülfünunu təsis etdiyimiz ilə bütün İranda mədəni və elmi inqilab olacaqdır. Bu darülfünun xalqımızın ehtiyacını gələcəkdə təmin edib ona yardım edəcəkdir... Gələcəkdə darülfünunun hər ilki kimi açılışı mərasimində bu günləri iftixarla yad edəcəyik. Bu darülfünun bizim üçün ən mühüm həyati və elmi müəssisə olacaqdır. Biz kəndli balalarını kəndlərdən yığıb gətirib burada təlim tərbiyə edəcəyik...»5

Biz Azərbaycanda demokratik hərəkatın qələbəsindən sonra Azərbaycan xalqının milli mədəniyyətinin demokratik əsaslar üzərində artan həqiqi inkişafını görürük. Xalq kütlələri böyük bir sevinclə, azad surətdə, keçmişdən miras qalmış xarabalar üzərində yüzlərlə ibtidai və orta məktəblər, universitet və sair milli mədəniyyət ocaqları yaratmaqla. 5 milyondan artıq bir xalqın milli mədəniyyətini inkişaf etdirmək uğrunda çalışırdılar.

Azərbaycan xalqı sürətli addımlarla siyasi, iqtisadi və mədəni maarif sahəsində getdikcə böyük müvəffəqiyyətlər əldə edirdi.

Təkcə bunu qeyd etmək kifayətdir ki, milli hökumət Təbriz universitetinin binası üçün 2 milyon 500 min tümən təxsisat ayırmışdı.

Azərbaycanda yaradılan yeni mədəniyyət ocaqlarından bəhs edən «Demokrat» məcmuəsi yazır ki, indi Azərbaycanın şəhər və kəndlərində hər gün minlərlə yeni mədəni maarif ocaqları yaranmaqdadır. Məktəblərdə yoxsul uşaqlar üçün pulsuz təhsil imkanı yaranmışdır6.

İstibdad üsuli idarəsinin hökm sürdüyü illərdə Azərbaycan zəhmətkeşlərinin balaları məktəblərdə oxumaqdan və təhsil almaqdan məhrum idilər.

«Azad millət» qəzeti bu haqda yazır: İranın iyirmi illik irticai hökumət dövründə İran məmləkəti bütün ictimai və iqtisadi sahələrdə dala qalıb, həmin irticai dövlət uzun illər boyu məmləkətin inkişafından ötrü heç bir faydalı iş görməmişdir.

Təhsil İranda yalnız dövlətli uşaqlarından ötrü idi. Hər kimin ki, pulu yox idi, onun uşaqları oxumaqdan məhrum idi. Bu vəziyyət Azərbaycanda demokratik və milli hərəkatımıza qədər davam etdi»7.

Milli hökumətin mühüm tədbirlərindən biri də keçmiş irticai quruluşdan xalqa miras qalmış savadsızlığı az bir müddət içərisində ləğv etmək idi.

Azərbaycan Demokrat Firqəsi və milli hökumət ölkənin yaralarını sağaltmaq, onun mədəni iqtisadi sahələrini inkişaf etdirmək üçün geniş xalq kütlələrinin kiçikdən tutmuş böyüyə qədər savada və elmə yiyələnməsini günün zəruri və vacib məsələlərindən biri hesab edirdi. Məhz buna görə də Azərbaycanın bütün şəhər və kəndlərində savadsızlığa qarşı mübarizə aparmaq şüarı altında xüsusi siniflər təşkil edildi. Azərbaycanın maarif idarəsi və firqə komitələri bu sahədə böyük iş gördülər.

Kəndlərdə kəndlilər öz qüvvələri ilə məktəb binaları tikirdilər. Xalq kütlələrinin bu zövqünü və milli hökumətin tədbirlərinə olan sonsuz məhəbbət və əlaqəsini göstərən qəzet yazır: bildiyimiz kimi, keçən ilin ərzində Azərbaycan kəndliləri öz xərcləri ilə 2 000məktəb binası tikmişdilər. Bu xalqımızın mədəniyyətə, elm və sənətə olan əlaqəsini göstərir8.

Bunu göstərmək kifayətdir ki, milli hökumət yeni təsis olunacaq məktəblər, gecə kursları və universitetin təkmilləşdirilməsinə 10 milyon 600 iyirmi min 230 tümən büdcə ayırmışdı.

İmperialistlər və onların əlaltıları olan İran hakim dairələri Azərbaycana hər sahədə zərbə vurmuş, bu xalqın yeni nəslinin inkişafının qarşısını alaraq onu bədbəxtliyə, uçuruma və məhvə doğru sövq etmişlər.

İran irticasının Azərbaycanın gənc nəslinə göstərdiyi bu düşmənçilik münasibəti nəticəsində Azərbaycan uşaqlarının çox hissəsi yetim və başsız qalmış, böyük fəlakət içərisində idilər.

İmperializmin və İranın irticai üsuli idarəsinin bu çürük qayda qanunlarını ifşa edən və onları damğalayan «Azərbaycan» qəzeti yazır ki, hər gün sayı artan bu dilənçilərin fikrini çəkən və ölkənin heysiyyətini düşünən bir məmur, bir hakim, bir hakimiyyət orqanı yox idi. Dövlət bunlara adi bir şey kimi baxırdı9.

Öz ölkəsinin, xalqının səadət və xoşbəxtliyi uğrunda böyük addımlar atan milli hökumət

yetim və sahibsiz uşaqların tərbiyəsi, onların qayğısına qalmaq sahəsində də bir sıra ciddi tədbirlər həyata keçirtdi.

Milli hökumətin qərarında göstərilir ki, «Azərbaycan milli hökuməti xalqın istiqbal, səadətini və həmçinin gələcək nəslin mədəniyyət və səhhət cəhətindən tərəqqisini təmin etmək məqsədi ilə yetim sahibsiz uşaqları küçələrdən yığıb tərbiyə etmək üçün pərvəriş və tərbiyə evləri açmalıdır. Hökumətin qərarına görə 3 yaşından 14 yaşına qədər olan yetim, sahibsiz qız və oğlan uşaqlarını tərbiyə etmək üçün birinci növbədə Təbriz şəhərində iki qız və iki oğlan tərbiyəxanası təşkil ediləcək və başqa şəhərlərdə də bu cür müəssisələr yaratmaq üçün hazırlıq görüləcəkdir»10.

Milli hökumətin bu tədbiri də Azərbaycan xalqı tərəfindən çox sevinc və hərarətlə qarşılandı. «Urumiyyə» qəzeti xalqın bu sevincini belə ifadə etmişdir: «...Azərbaycan milli hökumətimiz yetim sahibsiz uşaqların tərbiyəsi haqqında gözəlcə tədbirlər və xudapəsəndanə fikir və təsmimlər nəzərə alıb. Milli hökumət yetim uşaqları və sahibsiz qızları öz nazpərvərdləri və bir güldəstəsi kimi məhəbbət ağuşunda bəsləmək fikrindədir. Ona görə lazım görürük ki Urmiyə əhalisinə müjdə verək. Sevgili hökumətimizin bu ali fikrinin parlaq şüası az bir zamanda bu şəhərdə də hamının gözlərini işıqlandırıb yeni bir dünya və yeni bir səadətə sövq etdirəcək»11.

Mili hökumət Azərbaycanın yeddi. şəhərində, ö cümlədən Təbriz, Urmiyə, Ərdəbil, Marağa, Zəncan, Xoy və Əhərdə tərbiyə evləri açmaq üçün 1 milyon 500 min tümən təxsisat buraxdı.

İşsizliyə qarşı mübarizə aparmaq, yeni karxanalar və fabriklər yaratmaq, keçmiş dövrdə bağlanmış karxanaları işə salmaq milli hökumətin qarşısında duran iqtisadi tədbirlərdən biri idi. Məhz milli hökumət bu mühüm işin öhdəsindən bacarıqla gələ bildi. «Azərbaycan» qəzeti bu haqda yazır ki: dayanmış «Pəşminə» toxuculuq karxanasını işə salmaq və beləliklə də neçə yüz nəfər işsiz qalmış fəhlələri işlə təmin etmək üçün milli hökumətimiz xalq qoşunları nazirliyinin sifarişlərini yerinə yetirmək məqsədi ilə o karxanaya bir milyon riyal pul buraxmışdır12.

İrtica hakimiyyəti dövründə ölkədə hökm sürən işsizlik haqqında «Azad millət» qəzeti yazmışdır ki, Azərbaycanda hərəkatımıza qədər fəhlələrin, əkinçilərin və aşağı təbəqələrin həqqi həyat şəraiti olduqca ağır idi. İşsizlik xalqın həyatını təhdid. edirdi.

Milli hökumətdən əvvəl işsizlik bütün ölkəni. başdan başa bürümüşdü, təkcə bunu göstərmək kifayətdir ki, Azərbaycanda 10 mindən artıq işsiz var idi. İranın başqa vilayətlərində də işsizlik fəhlələrin və zəhmətkeşlərin həyatı üçün qorxu törədirdi. İran dövlətinin illər uzunu həll edə bilmədiyi belə bir xəstə halı, işsizlik məsələsini yalnız Azərbaycanda xalqın milli azadlıq hərəkatı nəticəsində yaradılmış milli hökumət həll etdi.

İndi üç dörd yüz fəhlə ailəsinin maaşını təmin edən «Bustan» karxanası hərəkatımızdan əvvəl bağlanmaq ərəfəsində idi, «Pəşminə» karxanası idarə edənlərin xəyanəti nəticəsində hərəkatdan əvvəl bağlanmış, nəticədə yüzlərlə fəhlə işsiz qalmışdı.. İndi hökumətimizin binagüzarlığı nəticəsində həmin karxanalar işə düşüb, indi isə gecə gündüz işləyir13.

Milli sənayeni dirçəltmək, yeni fabrik və zavodlar açmaq və ölkənin sənayeyə olan ehtiyaclarını təmin etmək kimi mühüm məsələ milli hökumətin diqqət mərkəzində dururdu.

Təbrizdə trikotaj «Zəfər» fabrikinin, «Azərbaycan» papiros və çay fabriklərinin açılması milli hökumətin gördüyü iqtisadi tədbirlərdən biridir.

«Azərbaycan» jurnalı bu münasibətlə yazır: «Bu müddətdə ticarət işləri yoluna qoyulmuş, tətil edilən sənaye müəssisələrinin çoxu işə salınmış, yeni karxanalar: iplik paltar toxuyan «Zəfər» karxanası və sairə açılmış, məmləkətdə bolluq yaranmışdır»14. Milli hökumətin köməyi ilə bu sənaye müəssisələrinin işi canlandırılmışdı.

Milli hökumət yeni tikintilər üçün 5 milyon tümən pul ayırmış və tikinti işlərinin başlanması minlərlə fəhləni işlə təmin edirdi15.

Milli hökumət köhnə yolları təmir etmək, asfalt yollar, yeni yollar salmaq və yeni körpülər qurmaq sahəsində də bir sıra müvəffəqiyyətli işlər gördü. Sayinqala, Miyandab, Əhər, Miyana, Xalxal, Astara. Ərdəbil, Zəncan və Təbriz yollarını, Mahabad, Miyandab, Astara, Ərdəbil, Nir, Sarab və Bostanabad körpülərini yeniləşdirmək və təmir etməklə minlərlə işsizləri işlə təmin etdi.

Milli hökumət tərəfindən şose və dəmir yollarının təmiri, təzə yolların çəkilməsi, yeni teleqraf xətlərinin və poçt idarələrinin düzəldilməsi üçün poçt teleqraf nazirliyinə 8 milyon 795 min tümən təxsisat ayırmışdı. Həmin büdcədə yeni binaların tikilməsinə və dövlət binalarının təmir edilməsinə .2 milyon tümən pul nəzərdə tutulmuşdu.

Təbrizdə nəşr edilən «Demokrat» məcmuəsi yazır ki, indi hər kəs Azərbaycana baxarsa, firqəmizin rəhbərliyi ilə yaranmış və vücuda gəlmiş böyük tarixi işləri görə bilər: təzə tikintilər, şose yollarının çəkilməsi, böyük şəhərlərdə xiyabanlara asfalt döşənməsi — bütün bunlar canlı misallardır16.

Milli hökumət dövründə xalqın rifahı üçün görülən ictimai iqtisadi tədbirləri Azərbaycan xalqının həyatında irəliyə doğru böyük addım hesab edən «Yeni şərq» qəzeti yazır: «Bir il bundan qabaq xarabazara çevrilmiş şəhərlərimiz və gündən günə zibillik içində qərq olan xiyabanlarımız indi asfalt olub və olmaqdadır. Bu təsirli və ciddi addımları xalq gözləri ilə görür və ondan istifadə edir»17.

«İzvestiya» qəzeti Azərbaycanda həyata keçirilən ictimai iqtisadi tədbirləri belə qiymətləndirmişdir:

«Demokratik hərəkat İran Azərbaycanında xüsusi yüksəlişə nail olmuşdur. İran Azərbaycanının əhalisi isə uzun müddət ərzində nəinki siyasi, eyni zamanda milli zülmə, ağır cəza və təqiblərə məruz qalmışdır. Buna görə də Azərbaycanda islahat uğrundakı hərəkat İran dövləti çərçivəsində milli muxtariyyət uğrundakı mübarizəyə çevrilmiş və artıq yerli Azərbaycan əhalisinin əsas mənafeyinə uyğun bir sıra milli demokratik islahatların həyata keçirilməsi ilə nəticələnmişdir»18.

Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə Azərbaycan həmkarlar İttifaqı Təbriz şəhərində 40 mindən artıq fəhlə və sənətkarı öz bayrağı altında birləşdirmişdi.

Azərbaycan Demokrat Firqəsi fəhlələrin hüquq və mənafeyini qorumaq yolunda böyük işlər görmüşdür. Azərbaycanda qələbə çalmış milli azadlıq hərəkatı nəticəsində fəhlələrin yaşayış vəziyyəti keçmişlə müqayisəedilməz dərəcədə yaxşılaşdı.

Demək lazımdır ki, Azərbaycan Demokrat Firqəsi həmişə fəhlə sinfinin mənafeyini qorumaq yolunda heç bir fədakarlıqdan çəkinməmişdir.

Azərbaycan milli məclisinin 1946 cı il iyul tarixli 52 maddədən ibarət iş qanununun elan edilməsi Azərbaycan fəhlələrinin həyatında yeni bir dönüş əmələ gətirdi. Bu qanun

Azərbaycan fəhlələrinə 8 saatlıq iş hüququ, tətil, sığorta, istirahət və s. hüquqlar verdi ki, bunun da hələ o vaxta qədər İranda belə misli görünməmişdi. həmin qanun fəhlələrlə zavod və fabrik sahibləri arasında meydana çıxan ixtilafları aradan qaldırmaqda böyük rol oynadı və fəhlələrin iqtisadi hüquqlarını təmin etdi.

Azərbaycan fəhlələri milli hakimiyyəti ələ aldıqdan sonra iki azadlığa nail oldular: «birincisi— ümumazərbaycan xalqı kimi milli azadlıq, ikincisi — ümum fəhlələrin mənafeyini təmin etmək vasitələri ilə sinfi azadlıqdır ki, hər ikisi də fəhlə sinfinin mübarizə tarixində qızıl xətlərlə yazılacaqdır19.

«Qələbə» qəzeti Azərbaycan fəhlələrinin siyasi və iqtisadi hüquqlar əldə etməsindən danışaraq yazır: «Milli hərəkatımızın kargərlərimizə verdiyi hüquq azadlığı onları Şərqin ən xoşbəxt və səadətli kargərləri diyə tanıya bilmişdir»20.

Milli hökumət Azərbaycanın iqtisadiyyatını yüksəltmək, xalqın güzəranını yaxşılaşdırmaq məqsədi ilə Təbriz, Urmiyə, Ərdəbil, Zəncan, Xoy, Marağa, Əhər, Miyana, Maku, Salmas, Azərşəhr, Miyandab, Astara, Xalxal, Meşkinşəhr, Sulduz, Mərənd, Sarab və Ələmdarda dövlət mağazaları açaraq dövlətin inhisarında olan qənd, çay, parça, tütün, papiros və s. malların sabit və ucuz qiymətlə ticarətini təşkil etdi. Bundan başqa, milli hökumət bir milyon tümən məbləğində xəzinə sənədləri çap etdi. Bu da fəhlələrə və işçilərə bir tümən pula bir qran, yəni 10% ucuz mal almaq üçün imkan verirdi.

Milli hökumətin bütün bu və s. tədbirləri İran mürtəcelərinin və onların ağaları olan amerikan ingilis imperialistlərinin milli azadlıq hərəkatını iqtisadi blokada və təzyiq yolu ilə boğmaq qəsdlərini puça çıxartdı.

Milli hökumət Azərbaycan xalqının sağlamlığını təmin etmək işləri üçün Azərbaycanın səhiyyə nazirliyinə 5 milyon 30 min tümən büdcə ayırmışdı.

Azərbaycan xalqının bu nailiyyətlərini İranın istibdad üsulundan cana doymuş xalqları böyük rəğbətlə qarşıladılar.

Tehranda nəşr olunan «Şahbaz» qəzeti Azərbaycan xalqının bu nailiyyətləri haqqında yazır: «İran Azərbaycanında tam bir asayiş vardır. Əhali milli hökumətin tədbirlərindən, o cümlədən işsizliyin ləğv edilməsi, ərzaq şeyləri qiymətinin aşağı düşməsi, İran Azərbaycanı şəhər və kəndlərinin abadlaşmasından razıdırlar»21

Azərbaycan əhalisinin beşdə dörd hissəsindən çoxu kənd təsərrüfatı ilə məşğuldur. Kəndli torpaqları isə ümumi torpağın ancaq 10 faizini təşkil edir. Burada kənd təsərrüfatının geri qalması, torpaq üzərində hakimiyyət, torpaqdan istifadə şərtlərinin və vergilərin ağırlığı kəndlilərin acınacaqlı vəziyyətini gündən günə ağırlaşdırır.

Azərbaycanda iri mülkədar sahiblərindən Zülfüqarı, Səməd xan, Abdulla xan, İsgəndərilər, Məməqanilər və sairələri göstərmək olar ki, bunlar illər boyu qəsb etdikləri torpaqları kəndlilərə icarəyə verərək məhsulun beşdə dörd hissəsini zorla kəndlilərin əlindən alırdılar.

«Urumiyyə» qəzeti Azərbaycanın münbit torpağa və bol məhsula malik olmasından danışaraq yazır: bizim Azərbaycanımız həm münbit torpağa malik, abhava cəhətdən qayət dərəcədə əlverişli və qəni olmaqla bərabər, əkinçiliyə İranın başqa yerlərindən daha uyğundur!.22

Azərbaycan kəndlilərinin yetişdirdiyi bol taxıl, meyvə və bəslədikləri mal qaranın məhsulu nəinki xalqın ehtiyacını təmin edir, hətta Azərbaycan, Tehran və onun vilayətləri üçün də bir

azuqə mənbəyidir. Bütün bunlara baxmayaraq milli azadlıq hərəkatının qələbəsinə qədər Azərbaycanda feodal münasibətlərinin hökm sürməsi, mülkədarların və jandarmların sonsuz zülm və istismarı, kəndlilər üzərində qoyulan müxtəlif vergilərin çoxluğu onların var yoxdan çıxmasına, bir tikə çörək qazanmaq üçün öz doğma diyarını tərk edərək dəstə dəstə İranın vilayət və şəhərlərinə gedirdilər.

Demokratik hərəkatın qələbəsinə qədər Azərbaycanda kəndlilərin vəziyyəti belə idi.

Sovet İttifaqı Kommunist Partiyasının zəngin inqilabi mübarizə təcrübəsindən, böyük Leninin dühasından həmişə ilham almış Azərbaycan Demokrat Firqəsi torpaq məsələsinin həllində də marksizm leninizm nəzəriyyəsini və müddəalarını zaman və məkan şəraitinə uyğun olaraq yaradıcılıqla tətbiq etdi. Məhz buna görə də Azərbaycan Demokrat Firqəsi, özünün və milli hökumətin proqramında qeyd etdiyi kimi, dövlət torpaqlarını və Azərbaycan xalqının milli azadlıq hərəkatına qarşı çıxıb Azərbaycandan xaricdə təbliğat aparan mülkədarların torpaqlarını əvəzsiz olaraq yoxsul kəndlilər arasında bölüşdürmək problemini qanunvericilik yolu ilə, əməli surətdə həyata keçirdi. Bu isə birinci növbədə torpaqsız kəndliyə torpaq verilməsi, xalqın rifah halının yaxşılaşdırılması, kəndlilərin arasında işsizliyin aradan qaldırılması üçün firqənin və milli hökumətin gördüyü ən qiymətli və dəyərli tədbirlərindən biri kimi sayılır.

Azərbaycan milli məclisinin rəsmi orqanı olan «Azad millət» qəzeti 1946 cı il 20 fevral tarixli nömrəsinin baş məqaləsində yazır ki, milli məclisimiz, milli hökumətimiz demokratik üsulla təşkil tapdıqdan bəri var qüvvəsi ilə xalqımızın və vətənimizin tərəqqisi uğrunda çalışmış, kəndlilərin güzəranını yaxşılaşdırmaq məqsədi ilə bu məsələni öz proqramının 12 ci maddəsində qeyd etdi Torpaq qanununa əsasən bölünəcək kəndlərin sayı təqribən 1 500 ə çatır və beləliklə bu kəndlərdə təqribən 200 min ailə ya bir milyona qədər kəndli torpaq sahibi olmuş, öz həyatına, əməyinə və zəhməti nəticəsində əldə etdiyi məhsula malikdir. Ölkənin əsas sahəsi olan kənd təsərrüfatının inkişafı və demokratik tədbirlər nəticəsində yenidən qurulması, şübhəsiz ki, ümumi vəziyyətə də böyük təsir göstərəcəkdir. Ölkənin istehsal amillərindəki dəyişiklik, onun mədəni və mütərəqqi bir ölkəyə çevrilməsi üçün lazım olan zəruri şərtlərindəndir.

Azərbaycan milli məclisinin qəbul etdiyi tədbirlərdən biri də «Müsadirə haqqında»kı qanundur. Bu qanuna görə Azərbaycanı tərk edib Tehrana və sair şəhərlərə gedərək, Azərbaycanın azadlığı və milli hökumətin əleyhinə təbliğat aparanların Azərbaycanda olan bütün mənqul və qeyri mənqul əmlakı müsadirə edilir.

Milli hökumət mülkədarlarla kəndlilər arasında münasibəti müəyyən qaydaya salmaq, kəndlilərin istismar olunmasını məhdudlaşdırmaq, məhsul bölgüsündə kəndlilərin payını çoxaltmaq və s. sahəsində də tədbirlər həyata keçirdi. «Kənd təsərrüfatı bəhrəsinin maliklə əkinçi arasında bölünməsi qanunu» ölkəmizin kənd təsərrüfatının inkişaf etməsinə imkan yaratmışdır.

Keçən dövrlərdə malik ilə əkinçi arasında bəhrə və başqa vergilər üstə əmələ gələn ixtilaflar bəzi vaxt böyük kəşməkeş və qan tökmələrə səbəb olurdu. Bu qanun bu kimi yaramaz hərəkətlərə son qoyur.

Milli hökumət Azərbaycanın kənd təsərrüfatını inkişaf etdirmək, kəndlilərin vəziyyətini yaxşılaşdırmaq, kəndlilərə kənd təsərrüfatı və əkin materialı almaq, onlara yüngül şərtlərlə borc vermək üçün kənd təsərrüfatı nazirliyinə 5 milyon 5 min tümən təxsisat ayırdı.

Milli hökumətin aqrar islahatı Azərbaycan xalqı tərəfindən böyük sevinc və qızğın hərarətlə qarşılandı. Torpaq bölgüsü Azərbaycanda böyük el şənliyinə və el bayramına çevrildi.

Azərbaycan milli məclisinin və Azərbaycan milli hökumətinin yer bölgüsü haqqındakı qanun və tədbirlərinin həyata keçirilməsi xəbəri İran kəndlilərinin torpaq uğrundakı mübarizəsinə yeni ilham və qüdrət verdi. Həm də onlarda belə bir fikrin, belə bir tədbirin yəqinliyinə olan inamı qat qat artırdı.

Azərbaycanda aqrar islahatı imperializmə və onların ictimai dayaqları olan İran irticasına, komprador burjuaziyasına ən ağır və sarsıdıcı zərbə vurdu

Milli hökumətin aqrar islahatı Azərbaycan fəhlə və kəndlilərinin ittifaqını bir daha möhkəmlətdi. Onları öz doğma firqəsi və demokratik hökuməti ətrafında daha sıx birləşdirdi.

Yer bölgüsünün əhəmiyyəti mətbuatda belə qiymətləndirilmişdir: bu iş nə tək Azərbaycanda, bəlkə İranın bütün vilayətlərində iqtisad və təkamül cəhətdən böyük təbəddülat vücuda gətirəcəkdir. Yer bölgüsü və maliklə rəiyyətin hüdudunu təyin edən qanunlar milli hərəkatımızın iqtisadi təməli və maddi əsası oldu![23].

1946 cı il oktyabr ayının 2 də Təbriz şəhərinin firqə fəalları iclasındakı nitqində Azərbaycan Demokrat Firqəsinin sədri və milli hökumətin başnaziri Seyid Cəfər Pişəvəri demişdir: Kəndli bizim hərəkatımızın möhkəm dayağıdır. Mən ümid edirəm ki, bir vaxt gələcək İran xalqı da Azərbaycan xalqı ilə birlikdə torpaqları qəsb edən və İrani tərəqqidən saxlayan böyük feodalların kökünü kəsib aradan aparacaqdır[24].

Azərbaycan xalqının azad mühitdə yeni həyat səhnəsində iri addımlarla inkişafa doğru irəliləməsi, ölkənin səadət və tərəqqisi uğrunda milli hökumətin həyata keçirtdiyi iqtisadi tədbirlər demokratik mətbuat səhifələrinin ziynəti oldu. Bu mütərəqqi tədbirlər nəinki Azərbaycanın demokratik mətbuatında, eləcə də İran və dünyanın bir sıra demokratik qəzetlərində öz əksini tapdı.

Tehranda nəşr edilən «Zəfər» qəzeti Azərbaycan milli hökumətinin əldə etmiş olduğu müvəffəqiyyətləri alqışlayaraq qeyd edir ki, Azərbaycanda milli hərəkat müvəffəqiyyət əldə etdikdən sonra o, xalqın «inkişafı yolunda təsiredici qədəmlər götürdü. Kəndlilər öz hüquqlarına çatdılar. Yəni yer sahibi oldular. Küçələr asfalt olundu, habelə yeni fabriklər tikildi və bağlanmış müəssisələr yenidən işə düşüb, maarif müəssisələri və çoxlu məktəblər bərpa olundu[25].

Hizb Tudeyi İran və onun demokratik mətbuatı milli hökumətin həyata keçirtdiyi bütün ictimai iqtisadi tədbirləri alqışladığı kimi, onun aqrar islahatını da yüksək dərəcədə qiymətləndirdi.

«Nameyi rəhbər» qəzeti «Keçmişdə və indi» adlı məqaləsində inqilabi hərəkatdan qabaq Azərbaycan kəndlilərindən müxtəlif ünvanlarla alınan vergilərin milli hökumət tərəfindən ləğv edildiyini və Azərbaycan kəndlilərinin torpaq sahibi olduğunu qələmə alaraq yazır ki, Azərbaycan milli hökuməti bütün qəbuledilməz vergilərin hamısına qızıl xətlə qələm çəkdi və mülkədar bəhrəsini ədalətli əsaslar üzərində yenidən qurdu. Dövlət torpaqlarının kəndlilər arasında bölünməsi nəticəsində keçmişdə öz zəhmətlərinin bəhrəsindən istifadə edə bilməyən kəndlilərin böyük hissəsi torpaq sahibi oldu. Onlar böyük əlaqə ilə işə başlayaraq öz ehtiyaclarını rəf etmək üçün kəndli bankından istifadə edirdilər[26].

Milli hökumətin həyata keçirdiyi reformaları hətta dünyanın bir sıra mətbuatı da təsdiq edir.

Vaşinqtonda çıxan The «Middle East» jurnalı milli hökumətin bu islahatını etiraf etmək məcburiyyətində qalaraq yazır: «Üsyançıların rəhbəri və yeni rejimin başnaziri Pişəvəri dəqiq və təsirli təşəbbüslə bir sıra çox lazımlı islahatlar keçirtdi. Bunlar torpaq islahatından, fəhlələrin vəziyyətinin yaxşılaşdırılması, ictimai işlərin və maarif işlərinin inkişafı tədbirlərindən ibarət idi»27.

Milli hökumət az müddətdə musiqi, teatr və incə sənətin inkişaf etdirilməsi sahəsində də bir sıra müvəffəqiyyətli işlər gördü. Təbriz şəhərində Azərbaycan Dövlət Teatrı, oğlan və qızlardan ibarət musiqili rəqs ansamblı — filarmoniya yaradıldı. Urmiyə şəhərində dövlət teatrı yaradıldı. Şəhərlərimizdə musiqi məktəbləri, muzeylər təşkil edildi. Təbriz şəhərində Səttar xan, Bağır xan və Şeyx Məhəmməd Xiyabaninin heykəlləri qoyuldu.

Bu barədə Tehranda nəşr edilən «Dad» qəzetinin müdiri Əbulhəsən Əmidi Nuri öz xatirələrində yazır: «hələ indiyə qədər İranın paytaxtı olan Tehranda nə dövlət, nə bələdiyyə və nə də dövlətli adamlar tərəfindən İranın mərkəzinə layiq olan bir teatr salonu tikilməmişdir. halbuki Azərbaycanda beş ay müddətində tikinti və quruculuq fəaliyyəti xüsusi sürətlə irəliləməkdədir»28.

Azərbaycan xalqının haqq işini və azad səsini bütün dünyaya yaymaq üçün Təbriz şəhərində Azərbaycan radio stansiyası yaradıldı.

Şair və yazıçılarımızın yazıb yaratmaları üçün geniş fəaliyyət meydanı açıldı. Onların ana dilində əsərləri çap olunmağa başladı.

Gənc milli hökumətin ictimai iqtisadi tədbirləri Azərbaycan xalqını sevindirdiyi kimi, onun "ıldırım sürəti ilə yayılan təsiri İran zəhmətkeşlərinə çatdı və mübarizədə onları ruhlandırdı.

İranın müxtəlif şəhərlərində yaşayan Azərbaycan zəhmətkeşləri «Azərbaycan» qəzeti redaksiyasına yazdıqları məktublardan birində öz sevinclərini belə ifadə edirdilər: Biz Tehranda yaşayan azərbaycanlılar, «Azərbaycan» qəzetini oxuduğumuz zaman bizlərdə yeni ruh yüksəkliyi və böyük şadlıq əmələ gəlir. Təzə milli hökumətin az müddət ərzində böyük qədəmlər atması bizi həddindən artıq sevindirir.

Ölkəmiz və ana yurdumuz olan Azərbaycanın hər cəhətdən tərəqqi etməsi, əmniyyətin bərpası, maarif və mədəniyyətin öz ana dilimizdə olması, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlərin görülməsi, Təbrizdə yeni toxuculuq və başqa karxanaların tez bir zamanda işə salınması, dilənçilərin yığılıb işə cəlb edilməsi və başqa yenilikləri «Azərbaycan» qəzetində oxuyarkən qəlbimiz fərəhlə dolur, bizə can verir29.

Azərbaycandakı demokratik hərəkatın və milli hökumətin iqtisadi tədbirlərinin İran xalqının milli azadlıq hərəkatına, Yaxın Şərq və Orta Şərq xalqlarına göstərdiyi müsbət təsir haqqında Pişəvəri demişdir: Tarix firqəmizin Azərbaycan xalqı və İran milləti üçün gördüyü böyük işləri qızıl xətlə qeyd edəcək və xalq onu alqışlayacaq, sevəcək və başı uca olacaqdır.

Azərbaycan xalqının götürdüyü qədəmlər İran xalqı üçün təqlid sərməşqi olmuşdur. Yer bölgüsü, bu kimi başqa islahatlar Tehran qəzetləri, azadixahları və siyasətçilərinin gündəlik şüarı olmuşdur. Dediyimiz kimi, İran xalqı bizim hərəkatımızdan ilham alır və bu bir səsdir ki, xalqı ayıltmışdır30.

Firqənin və hökumətin qarşısında duran ən mühüm məsələlər barəsində danışarkən imperialistlərin və İranın irticai qüvvələrinin Azərbaycan xalqının milli azadlığı əleyhinə hər gün və hər dəqiqə yeni yeni fitnəkarlıqlar, sui qəsdlər və hücumlar təşkil etdiyini xatırladaraq

Pişəvəri demişdir ki, fədailər, dediyim kimi, böyük xidmət göstərdilər. Lakin onlar ilə düşmənin nizami qoşunlarının qabağına çıxmaq olmaz, düşmən yatmamışdır. O, xarici imperialist dövlətlərin köməyi ilə bizim azadlığımızı məhv etməyə hazırlaşır. Biz bir an qəflət edə bilmərik. Ona görə nizami milli qoşun hissələri düzəltməliyik. Bunun üçün firqə gərək ciddi hazırlıq aparsın. Millətin bütün sağlam əfradını milli vəzifəni yerinə yetirmək üçün səfərbərliyə almalı, tam mənası ilə müasir bir qoşun yaradılmalıdır. Firqənin qarşısında duran ən böyük məsələ bundan ibarətdir31.

Bu göstərişləri əldə rəhbər tutan Azərbaycan milli hökuməti və Azərbaycan milli məclisi xalq qoşunları təşkil etmək haqqında özlərinin qanun və qərarlarını hazırlayıb, günün təxirə salınmaz məsələsi kimi xalq kütlələrinə çatdırdılar.

Azərbaycanın bütün şəhər və kəndlərində bu münasibətlə keçirilən mitinqlərdə xalq kütləlıəri öz azadlıqlarını qorumaq üçün Azərbaycan milli məclisinin və milli hökumətin bu çağırışını da böyük ruh yüksəkliyi və sevinclə qarşıladılar.

«Azad millət» qəzeti sülh uğrunda, xalqın əmin amanlığını müdafiə etmək məqsədi ilə yaradılmış xalq qoşununun geniş kütlələr tərəfindən rəğbət və məhəbbətlə qarşılandığını göstərərək yazır ki, Azərbaycanın bu günkü milli qoşunu xalqımızın iradəsi ilə yaranmış və azadlığımızı, istiqlalımızı qorumaq üçün böyük amil hesab olunur. Xalq qoşunumuz millətimizin sevinci və ürək məhəbbəti ilə qarşılanır. Bu gün millətimiz, onun azadlığını qoruyan və hakimiyyətini hifz edən qoşuna böyük rəğbət və səmimiyyət göstərir32.

İran qoşunlarının baş qərargah rəisi general Ərfəənin özbaşınalığına və irticai hərəkətlərinə qarşı üsyan səslərini ucaltmış azərbaycanlı və Fars zabitlərindən bir dəstəsi İran qoşunlarından qaçaraq Azərbaycana pənah gətirdilər.

Bu mübariz zabitləri azad Azərbaycan böyük hörmət və səmimiyyətlə qarşıladı. Firqə və milli hökumət onların hərbi dərəcələrini artırdı, xalq qoşunlarında onlara layiq məqamlar verdi.

* * *

V. İ. Lenin ümumxalq hərəkatını xarakterizə edərək ona belə tərif vermişdir: «Ümumxalq hərəkatı o hərəkatdır ki, bütün ölkənin obyektiv ehtiyaclarını ifadə edərək öz ağır zərbələrini ölkənin inkişafına mane olan əsas düşmən qüvvələrinə vurur. Ümumxalq hərəkatı o hərəkatdır ki, əhalinin böyük çoxluğu öz rəğbəti ilə ona yardım edir»33.

1945—1946 cı illərdə Azərbaycanda milli azadlıq hərəkatında bütün xalq kütləri iştirak etmiş və onun bütün tədbirlərini həyata keçirməkdə ona yardım etmişlər.

Azərbaycan xalqının milli azadlıq hərəkatı İran üçün tam mənası ilə daxili bir iş idi. İran xalqları bu hərəkata böyük ümid bəsləyirdilər. Lakin daxili və xarici mürtəcelər onu İrandan ayrılmaq kimi qələmə verməklə, məqsədləri bir tərəfdən, bu hərəkatı İran xalqlarının nəzərindən salmaq, ləkələmək və xalq kütlələrində milli azadlıq mübarizəsi əhvali ruhiyyəsini zəiflətmək, digər tərəfdən, daxildə kütləri milli hökumətə qarşı təhrik etməkdən ibarət idi.

İstər 1905—1911 ci illər Səttar xan hərəkatı, istər 1917—1920 ci il Şeyx Məhəmməd Xiyabani hərəkatı, istərsə də 1945—1946 cı il Pişəvərinin başçılığı ilə olmuş milli azadlıq hərəkatı dövründə Azərbaycan xalqı ələ silah alaraq mənfur istibdad üsuli idarəsi əleyhinə, müstəmləkəçilik zülmünə qarşı ayağa qalxdığı zaman onun düşmənləri, imperialist casusları bu xalqın müqəddəs hərəkatını ləkələmək məqsədi ilə onu İrandan ayrılmaq kimi qiymətləndirməyə can atmışlar.

İmperialist dairələrin iradəsi ilə idarə olunan Tehranın irticai qəzetləri Azərbaycan xalqının milli azadlıq hərəkatını ləkədar etmək məqsədi ilə ona cürbəcür böhtanlar atırlar.

Məşhur mətbuat fırıldaqçısı Yalçın başda olmaqla, Türkiyənin bir sıra faşistpərəst mətbuatı da Reyter agentliyinin Azərbaycan xalqının milli azadlıq hərəkatı əleyhinə yağdırdığı böhtanları böyük canfəşanlıqla təkrar edirdi.

Türkiyə radiosu Azərbaycan xalqının öz müqəddəratına sahib olmasını onun İrandan ayrılması kimi qələmə verməyə ciddi cəhd edirdi.

Lakin Azərbaycanda nəşr olunan demokratik mətbuat imperialistlərə mənsub olan və onların göstərişi ilə hərəkət edən düşmənlərin bu böhtanlarını amansızlıqla ifşa və alt üst edərək daşını daş üstə qoymurdu.

«Azərbaycan» qəzeti bu münasibətlə yazmışdır ki, biz hələ demokratik hərəkatımız başlanan günlərdə demişdik ki, qoy Osmanlı əfəndilər nahaq yerə boğazlarını cırmasınlar, bu keçədən onlara börk ola bilməz, Azərbaycan hər nə istəmiş olsa, İranın daxilində qalmaq şərti ilə istəyir.

Biz biganələrin daxili işlərimizə dəxalət etməsinə imkan verməyəcəyik. Türkiyə mürtəceləri əgər Türk xalqını Amerika müstəmləkəçilərinin qucağına atmaqda özlərini bəyənirlərsə, bizim buna sözümüz ola bilməz, lakin biz Azərbaycan xalqını İrandan ayırmaq fikrində deyilik. Qoy türklər anlasınlar və xainanə səslərini kəsib bizi öz halımıza buraxsınlar[34].

İran həmkarlar İttifaqı Mərkəzi Şurasının orqanı olan «Zəfər» qəzeti «Azərbaycan və İran fəhlələrinin hərəkatı» adlı məqaləsində düşmənlərin yağdırdıqları böhtanları rədd edərək göstərir ki, Azərbaycan qəhrəmanlar yurdudur, o elə bir yerdir ki, İranın böyük azadlıq hərəkatı oradan baş vermiş və məşrutənin bağı bu xalqın oğullarının qanı ilə suvarılmışdır. O bu dəfə yenə də cəllad faşist hökumətinin azadlığın axırıncı asarını məhv etmək istədiyi bir zamanda qiyam etdi. O qiyam etdi və sübut etdi ki, azadlığı ələ almaq üçün Asiyada bir millət vardır. O mübarizə aparır, qurban verir, müstəmləkəçilərin və onların nökərlərinin əllərini kəsir və azadlığa nail olur.

Ancaq mürtəcelər deyirlər: o, İrandan ayrılmaq istəyir: imperialistlərin şeypurları London, Vaşinqton və Anqaradan fəryad edirlər ki, Azərbaycan İrandan ayrılmaq istəyir. Amma Azərbaycan onlara dişsındırıcı cavab verib dedi: Azərbaycandakı azadlıq bütün İranda həyata keçməlidir[35].

1958 ci ildə imperialistlərin göstərişi ilə İranın irticai dövləti tərəfindən güllələnmiş, Hizb Tudeyi İranın Mərkəzi Komitəsinin üzvü, inqilabçı kommunist Xosrov Ruzbeh Tehranda hərbi məhkəmədəki müdafiə nitqində Azərbaycan və Kürd xalqlarının milli azadlıq hərəkatına ləkə vuranlara belə cavab vermişdir: «1945—1946 cı illərdə baş vermiş Azərbaycan və Kürdüstan hərəkatının əsla Azərbaycanı İrandan ayırmaq cəhdi olmamış, hətta, əksinə, bizim milli azadlıq və istiqlaliyyətimizin saxlanmasına, qorunmasına və möhkəmlənməsinə səbəb olmuşdur»[36].

Azərbaycan xalqının 1945—1946 cı il milli azadlıq hərəkatının heç zaman İrandan ayrılmaq fikri olmamış, o, İran daxilində yaşayan xalqların qardaşlıq və inqilabi həmkarlığına arxalanmış, irticai üsuli idarəyə, onun Azərbaycandakı hökmranlığına, imperializmin müstəmləkəçilik siyasətinə qarşı baş vermiş mütərəqqi bir hərəkat olmuşdur. Bu hərəkat İran xalqlarının milli istiqlaliyyət və azadlıq uğrunda, imperializmə, irtica rejiminə qarşı

apardıqları mübarizə hərəkatının ayrılmaz hissesi olmuşdur.

Deməli, Pişəvərinin başçılıq etdiyi milli azadlıq hərəkatı bütün ölkədə həyata keçirilməli olan ümum iran inqilabının bir hissəsi və müqəddəs bir üsyan olmuşdur»37.

Xosrov Ruzbeh bu barədə öz müdafiə nitqində obyektiv olaraq göstərmişdir ki, Azərbaycan millətinin, Kürd millətinin, Fars millətinin və əqəlliyyətdə qalan millətlərin öz müqəddəratını həll etməyə, özü də İranın vahid bayrağı altında federativ hökumət təşkil etmək cəhdini heç vaxt ölkənin bütövlüyünə xələl yetirmək cəhdi kimi göstərmək olmaz. Nə Azərbaycan millətinin, nə Kürd millətinin və nə də onların siyasi rəhbərlərinin ölkənin ərazi bütövlüyünə azacıq da olsa xələl yetirmək məqsədi daşıyan fikirləri olmamış vo yoxdur38.

Azərbaycan xalqının milli azadlıq hərəkatı fəhlələrin həmrəyliyi və onların inqilabi həmkarlığını möhkəmləndirərək, geniş xalq kütlələrini demokratik hakimiyyət yaratmaq uğrunda birgə mübarizəyə qaldırmışdır. Bu hərəkatın yaratmış olduğu milli hökumət imperialistlərin və İran mürtəcelərinin Azərbaycandakı hökmranlığını alt üst edib xalqa demokratik hüquqlar vermiş, onu zülm və əsarətdən nicat tapmış azad bir xalq kimi dünyaya tanıtmışdır.

Tehranın satqın mətbuatı növbəti bir yalan yazaraq belə göstərmək istəyir ki, əgər Tehran Azərbaycana yaxşı baxsaydı və oraya adil bir hökumət göndərsəydi, Azərbaycanda milli azadlıq hərəkatı baş verməzdi.

Lakin işin həqiqəti belə deyildi. hərəkatımız yalnız Azərbaycan xalqının iradəsi ilə vücuda gəlmişdir. Azərbaycanlı qərinələr boyu azad yaşamaq istəmişdir. Azərbaycan xalqı istəyirdi ki, öz müqəddəratını özü həll etsin.

Dava, çörək və yaxşı hakim davası deyil idi. Demək, hərəkatımız daha dərin səbəblərdən meydana çıxmışdır39.

Yeri gəlmişkən qeyd edək ki, Mustafa Bərzaninin başçılığı ilə İraq kürdlərinin hazırda apardıqları mübarizə eyni ilə Azərbaycan hərəkatının təkrarıdır, zira, azərbaycanlılar kimi, kürdlər də ayrılmaq deyil, muxtariyyət almaq uğrunda vuruşurlar.

İranın satqın irticai mətbuatının növbəti yalan və iftiraları demokratik mətbuatın səhifələrində getdikcə daha kəskin ifşa olunurdu. Tehranın irticai dairələrinə mənsub olan həmin qəzetlər Azərbaycan xalqının öz müqəddəratına sahib olaraq iri addımlarla irəlilədiyini və Azərbaycanın milli demokratik hərəkatının İrana təsirini görərək yeni bir hiyləyə əl atdılar. Onlar Xozistan məsələsini ortaya ataraq deyirdilər ki, əgər biz Azərbaycana bu haqq və imtiyazları versək, Xozistan da istəyəcək. İrticai mənbələr bu yol ilə bizim hərəkatımıza maneçilik törətmək üçün Xozistanda cürbəcür təşəbbüslər edir, ərəblər ittihadiyyəsi vücuda gətirirlər. Bu yalançı ittihadiyyə Ərəb. dövlətlərinə şikayət edir və Xozistanı İrandan ayırmaq və ərəb ölkələrinə qoşmaq istəyir. Lakin bizim heç vaxt İrandan ayrılmaq şüarımız olmamışdır. Biz hər nə istəmişik, İran daxilində istəmişik, bizim düşmənlərimiz Azərbaycan hərəkatını aradan qaldırmaq üçün Xozistanı İrandan ayırmaq istəyirlər. Düşmənlərimizin gətirdikləri bəhanələr və Xozistan məsələsini ortaya atmaları siyasi macəraçılığın bir təzahürüdür40.

V. İ. Lenin hələ vaxtı ilə belə burjua məddahlarını kəskin ifşa edərək yazmışdır: «Sizin azadlıq və demokratiya haqqında danışdıqlarınız gurultulu sözlərdən, çeynənmiş ibarələrdən, bir dəb şəkli almış boşboğazlıqdan və ya riyakarlıqdan ibarətdir. Bu, bəzək düzək verilmiş bir

lövhədir. Həqiqətdə isə siz mömin donunda şeytansınız. Sizin qəlbiniz tam bir gəda qəlbidir, sizin elminiz, mədəniyyət və maarifiniz isə peşəkar fahişəliyin yalnız bir növüdür, çünki siz öz qəlbinizi satırsınız...»41.

Məsələ tək Azərbaycan məsələsi deyildir. Söz bütün İranda azadlıq, demokratik üsulunun yayılması üstündədir. Tehranın hakim dairələrini, İranın böyük feodal və torpaq sahiblərini qorxuya salan da burasıdır. Onlar qanun əsasi pərdəsi altında bütün xalqın hüquqlarını məhv etməyə çalışırlar. Dava kəndlinin aldığı torpaq və xalqın aldığı əsil hakimiyyət üstündədir.

Söz məşrutənin, demokratik üsulunun İranda icra edilməsi və bizim başladığımız böyük islahat proqramının bütün məmləkət daxilində həyata keçməsi üstündədir.

İran və Azərbaycanın demokratik mətbuatı, bir tərəfdən İranın irticai qəzetlərinin yalanlarını ifşa edir, digər tərəfdən isə beynəlxalq irticaya sarsıdıcı zərbələr endirir və düşmənlərin iç üzünü və yeritdikləri qara siyasətlərini ifşa edir, vaxtlı vaxtında kütlələrə açıb göstərirdi.

Azərbaycanda nəşr edilən demokratik mətbuatın milli azadlıq hərəkatındakı rolunu qiymətləndirərək «Azərbaycan» məcmuəsi yazır: «1324—1325 ci (1945—1946 cı) illərdə Azərbaycanın müxtəlif şəhərlərində nəşr olunan demokratik mətbuatımız daxili və xarici irtica ilə üz üzə durub ön atəş xəttində dayanmış döyüşçünün vəziyyətini andırır»42.

Bu zaman Azərbaycan xalqının milli azadlıq hərəkatının möhkəm dayağı olan Hizb Tudeyi İranın mübariz mətbuatı Azərbaycan xalqının haqlı tələblərini, həyata keçirmiş olduğu bütün siyasi, iqtisadi və mədəni tədbirlərini alqışlayır və ona tərəfdar çıxırdı.

Pişəvəri həmin inqilabi mətbuatı qiymətləndirərək demişdir ki, bizim hərəkatımıza Tehranda çıxan azadixah qəzetlər, o cümlədən: «Rəhbər», «Zəfər» və sairləri əvəzsiz olaraq kömək edirlər. Onlar bizim hərəkatımızın ikinci sütunu idilər.

***

Azərbaycan, Kürd və İran xalqlarının Sovet xalqları arasında genişlənməkdə olan iqtisadi mədəni əlaqələr və dostluq münasibətləri bu xalqların iqtisadiyyat və mədəniyyətinin inkişafına ən yaxşı təsir göstərirdi.

Ədəbiyyat, incəsənət, maarif və mədəniyyətin irəliləməsinə kömək edən Sovet İttifaqı ilə Mədəni Rabitə Saxlayan İran cəmiyyəti Təbriz şöbəsinin nəşriyyatı bədii, elmi, ictimai və siyasi əhəmiyyətə malik olan bir sıra qiymətli əsərlər nəşr etmişdir. Bunlardan 1944, 1945 və 1946 cı illərdə nəşr edilmiş «Zəfər nəğmələri», Azərbaycan şairi «Heyran xanımın divanı», «Saib Təbrizinin şərh halı», «Mirzəli Möcüzün seçilmiş əsərləri», böyük rusya yazıçısı «Maksim Qorkinin şərh halı» və seçilmiş əsərlərindən ibarət olan kitabça, «Nəğmə», «Usta Zeynal», «Lay lay», şair «Əli Fitrəti» «Elim azaddır», böyük rus təmsilçisi «İ. A. Krilovun qısa şərh halı» və bir neçə mənzum dastanlar kitabçasını və s. göstərmək olar.

Mirzə İbrahimovun 1946 cı ildə Təbrizdə «Azərbaycan dili» adlı kitabçasının nəşri Azərbaycan xalqının doğma dilinin tarixən öyrənilməsində böyük bir vasitə olmuşdur.

Tarix elmləri namizədi, dossent Şərəflinin «Azərbaycan xalqının moğul istilaçıları əleyhinə mübarizəsi» adlı kitabçası da Azərbaycan xalqının işğalçılara qarşı tarixi mübarizəsi nöqteyi nəzərindən diqqətə layiqdir. Sovet Azərbaycanının tarixi inkişafını özündə əks etdirən Ənvər Məmmədxanlının «25 bahar» adlı kitabçası Sovet İttifaqı ilə mədəni rabitə saxlayan İran cəmiyyəti Təbriz şöbəsinin fəaliyyətinin nəticəsidir. Bu kitabçada müəllif Sovet hakimiyyəti

dövründə Sovet Azərbaycanı xalqının əldə etmiş olduğu bütün nailiyyətləri bariz qələmlə izah etmişdir.

Azərbaycan xalqının məşhur yazıçılarından Firidun İbrahiminin 194b cı ildə «Azərbaycanın qədim. tarixindən» adlı əsərinin nəşri də öz növbəsində böyük əhəmiyyətə malikdir. Həmin əsərdə Azərbaycan xalqının öz milli istiqlaliyyəti uğrunda yadelli işğalçılara qarşı apardığı qəhrəmanlıq mübarizəsi əks etdirilmişdir. Yazıçı Azərbaycanın qədim tarixini saxtalaşdıranlara dişsındırıcı cavablar verməşdir.

Böyük rus xalqının ədəbi və elmi simalarını İran xalqları ilə tanış etməkdə Sovet mədəniyyət evinin nəşriyyatı bir sıra müvəffəqiyyətli işlər görmüşdür. Azərbaycanın demokratik mətbuatının səhifələrində Sovet mədəniyyət evinin fəaliyyəti göstərilmişdır.

«Sovet mədəniyyət evi nəşriyyatına nəzər» adlı məqalədə deyilir: «Böyük rus xalqının indiyədək geniş İran xalqları arasında məchul qalan ədəbi, elmi simaları yalnız Sovet mədəniyyət evi vasitəsi ilə xalqımız içərisində təb və nəşr edilmişdir»43.

Təbrizdə nəşr edilmiş «Vətən yolunda» Qızıl Əskər qəzeti onlarca şair və yazıçı yetişdirmiş, «Şairlər məclisi» özünün nəşr etdiyi mətbuatı ilə Azərbaycan şairlərini geniş xalq kütlələrinə tanıtdırmaqda diqqətə layiq işlər görmüşdür. «Vətən yolunda» qəzeti Azərbaycan xalqının ədəbi dilinin inkişafında və təkmilləşməsində də olduqca böyük rol oynamışdır. Qəzetin səhifələrində Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Mirzə İbrahimov, Rəsul Riza, Osman Sarıvəlli, Q. Musayev, Cəfər Xəndan, İ. Nəzərov, S. Abbasov, Q. Məmmədli və başqa şair və yazıçıların çap edilmiş əsərləri geniş xalq kütlələrini faşizmə qarşı mübarizəyə ruhlandırırdı.

Azərbaycanda demokratik mətbuatın, ana dilində qəzet və jurnalların meydana gəlməsində bu qəzetin müsbət təsiri və böyük rolu olmuşdur.

«Vətən yolunda» qəzeti yanında təşkil olunmuş «Şairlər məclisi» Azərbaycanın əllidən çox şairini öz ətrafında birləşdirərək onların yaradıcılığına yaxından kömək edirdi. Bu şairlərdən Əli Fitrət, Mir Mehdi Etimad, İbrahim Zakir, Balaş Azəroğlu, Əli Tudə, Hilal Nasiri, Kaşif, Aşıq Hüseyn Cavan, Mir Mehdi Çavuşi, M. Niknam, Hökümə Billuri, Mədinə Gülgün, Məhzun, Murtuza Pir, Fəxrəddin Nuri, M. Dirəfşi və s. göstərmək olar.

Bunu cəsarətlə deməliyik ki, milli azadlıq hərəkatımızın nəticəsində bir sıra cavan şairlərimiz həqiqi yaradıcılıqları ilə özlərinə şöhrət qazandırmışlar. «Azəroğlu, Əli Tudə, Mədinə Gülgün, M Dirəfşi və qeyriləri yalnız nehzətimizin şairi hesab oluna bilərlər»44.

Azərbaycanın milli azadlıq hərəkatı, bütün sahələrdə olduğu kimi, demokratik ədəbiyyatın inkişafına da böyük təkan verdi.

«İndi tam qürurla demək olar ki, İran Azərbaycanında yeni bir ədəbiyyat yaranır. Bu ədəbiyyat ümumən Azərbaycan ədəbiyyatı tarixində özünə məxsus bir yer tutacaqdır. Milli hökumətini quran Azərbaycan xalqı öz milli ədəbiyyatı ilə də fəxr edə bilər. Çünki bu ədəbiyyat xalqın milli qürurundan ilham alır. Azərbaycanda milli hərəkatın bayraqdarı olan Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi altında ana dilində, elmi, mədəni müəssisələr yarandığı kimi «şairlər və yazıçılar cəmiyyəti» də yaranmışdır»45.

Azərbaycanda ana dilində demokratik mətbuatın və ədəbiyyatın yaranmasında və inkişafında Təbrizdəki Sovet mədəniyyət evinin, Sovet İran mədəni rabitə cəmiyyəti Təbriz şöbəsinin və onun nəşr etdiyi «Şəfəq», «Vətən», «Mədəniyyət», «Azərbaycan» jurnallarının, «Vətən

yolunda» Qızıl Əskər qəzetinin və sairənin müsbət və təsiredici rolu olmuşdur.

«Günəş» məcmuəsi Sovet mədəniyyət evinin iki illik fəaliyyətini belə qiymətləndirmişdir: Sovet mədəniyyət evi Azərbaycan ədəbiyyatı tarixinin inkişaf və təkamülü barəsində keçmiş şair, yazıçı, ədib və alimlərin həyat və fəaliyyətini və onların tərcümeyi hal və şah əsərlərini təhlil və nəşr etməklə kifayətlənməyib müasir şair və yazıçıların, xalqımızın əzəmət və mədəniyyətini tərənnüm edən seçilmiş əsərlərinin nəşrinə çalışaraq bu iki il müddətində 23 cild kitab, məcmuə çap və nəşr etmişdir[46].

«Azərbaycan» qəzeti Sovet mədəniyyət evinin elm, maarif sahəsində etdiyiköməklikləri qiymətləndirərək Azərbaycan xalqının minnətdarlıq və təşəkkürünü bu cümlələrlə belə ifadə etmişdir: «Mədəniyyət evinin xalqımızın tərəqqi və təkamül yolunda etdiyi köməklik çox böyükdür. Biz bu mədəni təşkilatın, onun fazil, dəyərli rəhbər və işçilərinin maarif, mədəniyyət və sənət naminə xalqımıza etdiklərini unutmayacağıq»[47].

Sovet dövlətinin xalqımıza göstərdiyi maddi və mənəvi köməkliyi qiymətləndirən «Qələbə» qəzeti yazır: «Xalqımızın az bir zamanda mədəniyyət və maarif sahəsində əldə etdiyi müvəffəqiyyətlərdə bizə dost və qardaş olan həmsayəmiz Sovet İttifaqının böyük köməklikləri olmuşdur»[48].

İmperialistlərin oyuncağına çevrilmiş və iş başına gətirilmiş İranın dövlət başçıları İran xalqları ilə sovet xalqları arasında artmaqda olan dostluğu pozmağa cidd cəhd edirdilər. Lakin Azərbaycan və İran xalqları İran dövlətinin xalqa zidd siyasəti əleyhinə çıxaraq, Sovet İttifaqı və sovet xalqları ilə özlərinin dostluq əlaqələrini möhkəmləndirməyi tələb edirdilər.

İran xalqlarının Sovet İttifaqı xalqları ilə dostluq arzularını ifadə edən Pişəvəri demişdir: «Sovet İttifaqı ilə dostluğumuz İran istiqlalının zaminidir. Ona görə də İran və Sovet İttifaqının dostluğu gərək əbədi olsun»[49].

1945—1946 cı illərdə Azərbaycanda nəşr edilmiş demokratik mətbuat beynəlxalq inqilabi hərəkat tarixində yeni dövr açan Böyük Oktyabr inqilabına, onun rəhbəri olan Sovet İttifaqı Kommunist Partiyasına — Vladimir İliç Leninə ardıcıl məqalələr həsr etmişdir.

«Azərbaycan» qəzeti 2 noyabr 1946 cı il tarixli nömrəsini Böyük Oktyabr sosialist inqilabının 29 cu ildönümünə həsr etmişdir.

Həmin qəzetin nömrəsində dünya proletariatının dahi rəhbəri Vladimir İliç Leninin şəkli verilmişdir. Qəzetdə «Oktyabr və İran», «Oktyabr inqilabı dünyaya nə verdi?», «Böyük Oktyabr inqilabı və xalqlar dostluğu», «Oktyabr inqilabının beynəlxalq mahiyyəti» və sair məqalələr və müxtəlif şerlər verilmişdir.

«Oktyabr və İran» adlı baş məqalədə deyilir ki, 1917 ci ildə Böyük Oktyabr inqilabının qalib çıxması və çar istibdadının yıxılması və darmadağın edilməsi ilə İran xalqlarının həyatında yeni bir dövr açıldı. Sovet hökuməti, yarandığı gündən bütün məzlum xalqlara, o cümlədən İran milləti ilə dostluq siyasəti yeridib onların qayğıkeş bir qonşusu oldu. Sovet hökuməti çar imperializminin əksinə olaraq İranla bir dost kimi rəftar etməyə başladı.

«Qələbə» qəzeti 1946 cı il 23 cü nömrəsini Böyük Oktyabr inqilabının 29 cu ildönümünə həsr etmişdir. Qəzetin başlığında bu şüar verilmişdir:

«Zülmün çürümüş, murdar rişəsini dünyanın altıda bir hissəsindən əbədi olaraq üzüb atan qəhrəman rus xalqına eşq olsun!»

Qəzet yazır ki, yalnız dahi Leninin düzgün rəhbərliyi sayəsində rus xalqı və rus proletariatı həqiqi inqilaba başlayaraq çarizm qalıqlarını rişədən qırıb, azad xalq dövlətini qura bildi. Beləliklə, rus xalqı dünyada ən qabaqcıl bir millət olaraq dünya azadixahlarının dayağıdır50.

«Azərbaycan» qəzeti özünün «Oktyabr inqilabı və Şərq» adlı məqaləsində yazmışdır: «Oktyabr inqilabından sonra Şərqdə geniş azadlıq hərəkatı vücuda gəlmiş və əsrlər boyu əsir yaşayan, istiqlal və hakimiyyətləri imperialistlər tərəfindən tapdalanan məzlum Şərq xalqları imperializmin təsəllütünə son qoymağa iqdam etmişlər. Məzlum xalqların bu qurtuluş və nicat hərəkatını müdafiə edən bir qüvvə varsa o da Sovet dövlətidir. Buna görədir ki, Şərq millətləri Sovet hökumətinə və onlara mübarizə yolunu göstərən və Şərqdə azadlıq nuru saçan Oktyabr inqilabına hədsiz sədaqət və səmimiyyət bəsləyirlər. Ona görə Oktyabr inqilabı Şərq xalqları üçün ən böyük və sevimli bir bayramdır»51.

V. İ. Lenin bütün zəhmətkeş bəşəriyyətin böyük xilaskarı və yer üzündə yeni azad həyatın yaradıcısı olmuşdur.

V. İ. Leninin adı qərbdən şərqədək, cənubdan şimaladək yeni dünyanın rəmzi olmuşdur.

Azərbaycanda nəşr edilən demokratik mətbuat Lenin ideyaları ilə ruhlanmış və xalqın xoşbəxtlik, səadəti uğrunda bu ideyalardan ilham almışdır.

Azərbaycan xalqının böyük Leninə və Sovet dövlətinə olan minnətdarlığı belə ifadə edilmişdir:

«Lenin Rusiyada yaranmış bir günəşdir. Lakin onun şüaları bütün dünyanın məzlum və zəhmətkeş xalqlarının ürəklərini xoş duyğularla isindirmişdir.

Lenin bəşəriyyətə xeyirxahlıq üçün doğulmuş bir qüdsiyyət idi. İndi bütün azadlıq sevən bəşəriyyət bu qüdsiyyətə səcdə edir»52.

«Xavər no» qəzeti V. İ. Leninin vəfatının 21 ci ildönümü günü münasibəti ilə «Lenin ölmüşsə də leninizm yaşayır» adlı baş məqaləsində yazır ki, Lenin, Böyük Oktyabr sosialist inqilabı vasitəsi ilə sübut etdi ki, fəlakət, bədbəxtlik, zülm, əsarət və istismarı yalnız birlik və inqilab ilə aradan qaldırmaq olar.

Lenin ölmüşsə də ancaq leninizm yaşayır və qalib gəlir. Nə qədər ki, dünya öz məhvəri ətrafında fırlanır, günəş işıq saçır, dörd fəsil bir birini əvəz edir leninizmin işıqlı ulduzu həmişə şəfəq saçacaqdır53.

1. «Kommunist» qəzeti,, no. 7204, fevral 1946 cı il.
2. «Pravda» qəzeti, 27 yanvar 1946 cı il.
3., və 4. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 96, 9 yanvar 1946 cı il.
5. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 225, 14 iyun 1946 cı il.
6. «Demokrat» məcmuəsi, Təbriz,. no. 1, sentyabr 1946 cı il.
7. «Azad Millət» qəzeti, no. 65, 19 iyul 1946 cı il.
8. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 47 (336), 28 oktyabr 1946 cı il.
9. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 104, 18 yanvar 1946 cı il.
10. «Vətən Yolunda» günaşırı çıxan Qəzəl Əsgər qəzeti, no. (359), 11 yanvar 1946 cı il.
11. «Urmiyyə» qəzeti, no. 1, 23 yanvar 1946 cı il.
12. «Azərbaycan» qəzeti, ikinci dövrə. no 99, 13 yanvar 1946 cı il.
13. Yenə orada, no. 250, 15 iyun 1946 cı il.
14. «Azərbaycan» jurnalı, no. 9 (14), sentyabr 1946 cə il.
15. «Azərbaycan» qəzeti, ikinci dövrə. no 250, 15 iyun 1946 cı il.
16. «Demokrat» məcmuəsi, Təbriz,. no. 1, sentyabr 1946 cı il.
17. «Yeni Şərq» qəzeti, Təbriz, no. 142, uçüncü il, no. 7, sentyabr 1946 cı il.
18. «İzvestiya» qəzeti, 21 mart 1946 cı il.
19. «Şəhrivərin on ikisi», Təbriz, 1946 cı il.
20. «Qələbə» qəzeti, Təbriz, no. 25, 7 noyabr 1946 cı il.
21. . «Şahbaz» qəzeti, Təbriz, 17 yanvar 1946 cı il.
22. «Urmiyyə» qəzeti, no. 20, 16 aprel 1946 cı il.
23. «Şəhrivərin on ikisi», Təbriz, 1946 cı il.
24. Seyid Cəfər Pişəvəri. «21 Azər», 1961 ci il.
25. «Zəfər» qəzeti, no. 282, Tehran, 17 iyun 1946 ci il.
26. «Nameyi Mərdom», no. 691, Tehran, 12 aprel 1946 cı il.
27. «The Midle east» jurnalı, no. 1, 1956, Washington p. p. 18, 19
28. Əbülhəsən Əmidi Nuri. «Azərbaycane Demokrat», Tehran 1946 cı il.
29. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 141, 5 mart 1946 cı il.
30. Yenə orada, no. 2 (291), 6 sentyabr 1946 cı il.
31. Seyid Cəfər Pişəvəri. «21 Azər», 1961 ci il.
32. «Azad Millət», Azərbaycan milli məclisinin orqanı, no. 6 (191), 4 aprel 1946 cı il.
33. V. İ. Lenin, Əsərləri, 18 ci cild.
34. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 212, 30 may 1946 cı il.
35. «Zəfər» qəzeti, no. 274, Tehran, 7 iyun 1946 ci il.
36., 37., və 38. «Xosro Ruzbeh hərbi məhkəmədə». 1963, azərbaycan ruznaməsinin nəşriyyatı
39., 40. Seyid Cəfər Pişəvəri, «21 Azər», Azərbaycan ruznaməsinin nəşriyyatı, 1961 ci il.
41. V. İ. Lenin, Əsərləri, 13 cü cild.
42. «Azərbaycan» məcmuəsi, Azərbaycan ruznaməsinin nəşriyyatı, no. 1, 1962 ci il.
43. «Azərbaycan» qəzeti, ikinci dövrə. no. 275, 15 avqust 1946 cı il.
44. «Şəhrivərin on ikisi», Təbriz, 1946 cı il.
45. «Şairlər Məclisi». Təbriz, oktyabr, noyabr 1945 ci il.(şairlər məclisinin nəşriyyatı)
46. «Günəş» məcmuəsi, no. 1, Təbriz, sentyabr 1946. Azərbaycan şair və yazıçılar cəmiyyətinin nəşriyyatı.
47. «Azərbaycan» qəzeti. no. 269, 8 avqust 1946 cı il.
48. «Qələbə» qəzeti. no. 27, Tebriz, 14 noyabr 1946 cı il.
49. Seyid Cəfər Pişəvəri, «21 Azər», 1961 ci il.
50. «Qələbə» qəzeti. no. 23, Tebriz, 29 oktyabr 1946 cı il.
51. «Azərbaycan» qəzeti. no. 51 (340), 2 noyabr 1946 cı il.
52. «Vətən Yolunda» qəzeti, no. 9 (363), 21 yanvar 1946 cı il.
53. «Xavəre No» qəzeti, no. 33, Təbriz, 22 yanvar 1945 ci il.